# NİZAMİ GƏNCƏVİ POEZİYASINDA YEL VƏ TORPAQ ÜNSÜRLƏRİ

**Nərminə XANƏLİYEVA**

**BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının I kurs magistrantı**

Həyatın, mövcudatın əsasında dörd yaradılış ünsürünün dayandığı göstərilir. "Yer üzünün başdan-ayağa su olması" – ilkin su ünsürünü, suyun qurudulması (istilik mənbəyi olan od ünsürü ilə) hesabına sudan lil və torpağın ayrılması (yaradılması) – ilkin başlanğıcın əsasında dayanan od və torpaq elementlərini, yaradılış ünsürü olan torpaqdakı canlıların və insanın dirilik tapması, cana gəlməsi – canlanması üçün isə son nəticədə onlara "uruh verilməsi" – hava ünsürünü simvollaşdırır. Ən başlıcası isə odur ki, mifik mətndə hər yaradıcı ünsürün öz yeri, mövqeyi, əhəmiyyəti, rolu, funksiyası aydınca göstərilib və eyni zamanda bu fərdi ünsürlər ayrı-ayrılıqda həyat, yaşayış, dirilik üçün nə qədər böyük funksiyanı yerinə yetirirlərsə, həmçinin də bunların hamısı birləşib vahid bir komponent təşkil edirlər və bütöv canlı orqanizm kimi birlikdə canlı həyatın əsasında dayanırlar. Bir çox görkəmli yazıçı və şairlər kimi Nizami də poeziyasında folklor motivlərindən geniş şəkildə istifadə etmişdir. Poemalarında qoyulmuş məsələlər, onların izahı aydın və örtülü şəkildə, Nizami azadfıkirliliyini, onun elmi-fəlsəfi görüşlərinin, xüsusən dinə münasibətinin tarixən mütərəqqi olduğunu açıq nümayiş etdirir. "Yaradılış necə olub? İlk tərkib nədir? Dünyadakı dəyişkənlik necə baş verib?" və s. bu kimi sualların cavabını o, dörd ünsürə əsaslanaraq, poemalarında vurğulamışdır:

Əgər od, su, torpaq, bu əsən кüləк
Bir yerə toplaşsa uyğun gələrəк,
O böyüк tanrıdan olmasa fərman,
Məlumdur кi, gəlməz vücuda bir can.(Xosrov və Şirin)

Bir qara pul olsun, bir arpa əgər,
Onda dörd gövhərdən tapılar əsər.
Yəni hər bir kiçik maddənin tərkibi dörd ünsürün (torpaq, od, su, hava) birləşməsindən əmələ gəlmişdir. (Leyli və Məcnun)

Bu zidd qüvvələri bir yerə qatdı,
Ağıllı, hünərli insan yaratdı.
Zidd qüvvələr - bir-birinə zidd keyfiyyətlərə malik olan dörd ünsür (su, od, torpaq, hava) deməkdir. (İskəndərnamə)

Heç bir kəs torpağa dil verə bilməz,

Naxış vura bilməz suya da heç kəs.
Heç kim torpağı danışdıra bilməmiş və heç kim suya naxış sala bilməmişdir. Təkcə Allah torpaqdan nitq sahibi olan insan yaratmış və bir damcı suya insanın surətini nəqş etmişdir. (İskəndərnamə)

İlk pərgar hərlənib dövr edən zaman (Ərəstunun dedikləri)
Bu uca göylər də yarandı ondan.
Göyün gərdişindən od oldu aşkar,
Od hərəkət edən qüvvədən doğar.
Odun qüvvəsindən hava yarandı.
Hava istilikdən od kimi yandı.
Havada rütubət bol idi əslən.
Rütubət hərəkət etmədiyindən,
Onun zərrələri çöküb su oldu,
Bu cürə yarandı təmiz, şirin su.
Xılt saldı su daim sakit duraraq,
O xıltdan törədi gördüyün torpaq.
Dörd ünsür yaratdı o pərvərdigar,
Hərə öz yerində oldu bərqərar.
Qatdı bir-birinə onları həyat,
Yaratdı bunlardan bitki, nəbatat.
Bitki də başqa cür artdı, dirçəldi,
Cürbəcür heyvanlar vücuda gəldi.

Onlardan birinci - işıqlı oddur, (Bəlinasın dedikləri)
Dünyanın ən yüksək tağı da odur.
İkinci - havadır, hərəkətdədir,
Hərəkət etməzsə, bilinməz nədir.
Üçüncü - sudur ki, təravət verər.
Hər şeyə təzəlik, lətafət verər.
Dördüncü - torpaqdır, tapdayır əyyam.
Tapdanan köksündən toz qalxır müdam." (İskəndərnamə)

Tədqiqatçıların ilaxır çərşənbələrin üçüncüsü hesab etdikləri Yel çərşənbəsi dörd yaradılış ünsüründən biri olan **havanın** həyatverici gücü ilə bağlıdır. Külək, hava anlayışları ilə bağlı folklorumuzda çoxşaxəli örnəklərə rast gəlinir. Açması külək olan "əl ilə tutmaq olmaz, göz ilə görmək olmaz" tapmacasının özək qatında yelin, havanın gücünə işarə olunur, onun gözəgörünməz, ələkeçməz, sirli-sehrli ünsür olduğu vurğulanır. Yaz fəslinin gəlişini qabaqcadan işarələyən ilaxır çərşənbələrin mahiyyətində də ölgün təbiətli qış fəsli ilə mübarizə zəminində yeni həyatı – yenidən dirilməni canlandırmaq motivi dayanır. Havanın dirilik, yeni həyatın başlanğıcı rəmzi kimi xalqımızın təfəkküründə mərasimi aktı Yel çərşənbəsinin ayin və rituallarında özünü göstərir. Yel, külək, nəfəs bir ünsür olaraq gözəgörünməyən mücərrəd

varlıqdır. Bu gözəgörünməzlik əlaməti havanı birbaşa ruh anlayışı ilə bir müstəviyə gətirir. Ruh – nəfəs mənəvi varlıq olaraq gözə görünməsə də, həyat, yaşayış üçün vacib faktordur. Canlı aləmin təmsilçiləri nəfəs verib – nəfəs almasalar, canlı yaşayışdan məhrum olarlar. Hava canlılara nəfəs verməklə öz hərəkətliyini, dinamikliyini onlara keçirir. Başqa sözlə, cansız torpağı və suyu durğunluqdan çıxardır. Məhz bu xüsusiyyətinə görə yel ruhla eyniləşdirilir. Buna görə də Yel çərşənbəsi ruhumuzun, nəfəsimizin, ab-havamızın yenilənməsi, təmizlənməsi, arınıb-durulması bayramıdır.

Yel Azərbaycan mifik təfəkküründə sevgililər arasında vasitəçi rolunu da yerinə yetirir. O, qəhrəmanlara sirdaş olmuş, onların qəlbindəki fikirləri digərlərinə çatdırmışdır:

O, səba yelinə xitab edərdi:
-Oyan, tezdən oyan, səba yeli, sən!
Get, asıl Leylinin ipək telindən!
Söylə ki: "Eşqindən məhv olan yazıq
Sənin yollarına döşənmiş artıq.

Yarın sorağını gətirəndə yel,
Yüz qəzəl oxuyur ürəyi tel-tel.

Bəlkə gülüstanda əsən küləklər
O qərib aşiqdən verə bir xəbər.

Küləklə söylədi dərdini ona:
"Sən, ey öz əriylə keyf çəkən sona,
Hanı o əhd edib oturduğumuz,
Bir deyib, bir gülüb, bir durduğumuz? (Leyli və Məcnun)

Reyhanın ətrilə o əsən yellər
Xosrovdan Şirinə yetirdi xəbər. (Xosrov və Şirin)

Bundan əlavə hava insanlara qarşısındakı şəxsin daxili xüsusiyyətləri, gerçək niyyətləri haqqında da xəbər verərmiş:

Nə bilim, birinə rast gəlsəm əgər,
O qəlbitəmizdir, yoxsa bədnəzər?"
Şah dedi: "Düşünüb alimlər incə.
Bundan çıxarıblar belə nəticə:
Şübhəsiz, hər şeyə düşərsə nəzər,
Havadan keçərək eləyər əsər.
Bu zaman havayla birləşir, yəqin,
Odur ki, təsiri artır nəzərin.

Dəydiyi nöqtəyə göz salar bir iz,
Hava da o yerə bir yol tapar tez.
Əgər sağlam olsa hava bu zaman,
Dəydiyi şeylərə yetirməz ziyan.
Yox, əgər olarsa havada zəhər,
Dəydiyi hər şeyi yəqin məhv edər.
Göz, dəyən hər şeyə tək özü deyil,
Havayla birlikdə zərər verir, bil. (İskəndərnamə)

Dünyamızın yaranmasının mühüm amillərindən biri kimi götürülən **torpaq** sudan sonra ikinci maddi başlanğıcdır. Əski təsəvvürlərdə qadın cildində təsəvvürə gətirilir. Dildən düşməyən «Ana torpaq, ana Vətən» ifadələri buradan doğmuşdur. Torpağın meydana gəlməsi ilə Yer kürəsinin formalaşması başa çatır və təbiətdəki başqa maddi varlıqların (çayın, dağın, meşənin, çölün, heyvanın, insanın və s.) meydana gəlməsinə zəmin yaranır. Əksər mifoloji sistemlərdə dünyada olan bütün mövcudatın maddi, əşyavi tərəfi öz mayasını torpaqdan götürür. Məhz torpağın zəminində digər yaradılmışlar dirilik tapıb, inkişaf edir. Torpaqdan bitkilərin bitib-cücərməsi fikri bitkilərin timsalında digər canlılar aləminin torpağın hesabına – torpağın yaradıcı, bəxşedici gücü ilə yaranıb formalaşdığını əks etdirir. Lakin başlanğıcda allah hər şeyi hərəkətsiz halda meydana gətirmiş və ruhla, sonuncu mənəvi ünsürlə canlandırmışdır. Deməli, torpaq odun köməyi ilə sudan ayrılıb üzə çıxandan sonra yaradılanların hərəkətə gətirilməsinə, canlandırılmasına təkan verən sonuncu ünsürə ehtiyac duyulmuşdur. Torpaqdan yoğrulmuş palçıqdan insanların yaradılması və onlara ruh verilməsi tipli mifoloji informasiyada da yenə iki yaradıcı ünsürə işarə vurulur: Nəbatat aləminin – bitkilərin torpaqdan yaranması, heyvanat aləminin timsalında insanların torpaqdan xəlq olunması fikri diqqətə çəkilir. Deməli, torpaq maddi varlıq olaraq bitkiləri və insanları yaradır və öz üstündə varlıq aləminin yaşayıb inkişaf tapmasına, canlı fəaliyyətinə şərait yaradır. Canlıların torpaqdan yaranması ilə bağlı fikirlər Nizaminin poemalarında da əks olunub:

Torpaqdan yaratdın mayəmi mənim,
Torpaqdan yem aldı bütün bədənim. (Leyli və Məcnun)

Əvvəlcə torpaqdan yaratdın məni,
Sonra fəzilətlə ucaltdın məni. (Xosrov və Şirin)

Hoqqabaz torpaqda sehirbazlıq var,
Həm möhrə oğurlar, həm də oynadar.
Burada Nizami torpağın sehrbazlığını, yəni onun ölü bədənləri quru xəzəlləri udub, təkrar canlı heyvanlar, yaşıl otlar, nəbatat şəklində meydana çıxartdığını söyləyir. (İskəndərnamə)

İlin sonuncu çərşənbəsinin torpaqla bağlanılmasına göstərilən cəhdlərin kökündə dayanan psixoloji səbəbləri torpağın insanın real yaşayışında oynadığı mühüm rolda axtarmaq lazımdır. Belə ki, 4 yaradılış ünsüründən maddi olaraq ən çox gözə görünəni, təmasında olub, gündəlik güzəranımızın, həyatımızın, dolanışığımızın təminatçısı kimi gördüyümüz torpaqdır. O torpaq ki, yer üzünün 3-də 1 hissəsini təşkil edən quru sahəsidir. Bir sözlə, torpaq ünsürü cəmiyyətin və bütün varlıq aləminin üstündə yaşadığı zəmindir ki, torpaqsız yer üzü başdan-başa xaosa bürünmüş olardı. Bununla bağlı «İnsanın yaranması» adlı mifə diqqət edək:

Allah öncə insanı yaratmaq istəmişdir. Mələklərdən birini torpaq dalınca yerə göndərir. Torpaq qışqırır, hay-küy salır. Mələk qaçır. Sonra başqa mələklər göndərir. Torpaq yenə də qışqırır. Axırda Allah Əzrayılı çağırıb deyir ki, Yerə en və torpaqdan bir az gətir gəl.

Əzrayıl deyir: - Qurban olum, axı bir belə mələklər gedib torpaqdan götürə bilməyib. Torpaq vahimə çıxardır ki, məndən götürməyin, yaralamayın məni.

Allah-təala əmr edir ki, mən sənə deyirəm: Get götür gəl.

Əzrayıl torpağın üstünə enir. Torpaq vahimə qaldırıb çığırır: - Yox, mənə toxunma, məni yaralama.

Əzrayıl deyir: - Səndən aparıramsa, sənin özünə qaytaracağam.

Ona görə deyirlər ki, insan torpaqdan yaranıb, torpağa da qismət olacaq. Əzrayılın sözlərini eşidən torpaq rahatlıq tapır.

Göründüyü kimi, Azərbaycan türklərinin mifoloji düşüncəsinin qaynaqları öz kökləri etibarı ilə tarixin çox dərin qatlarına bağlanır. Onların izlərini gen yaddaşından adət-ənənələrə, rituallara, qədim bayramlara, folklor örnəklərinə, klassik ədəbiyyata, ümumiyyətlə, mədəniyyət formalarına qatmaqla unudulmağa qoymamışlar.